## AZƏRBAYCAN RESPUBLİKASI
## DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI

### Q Ə R A R

**№ 6**

**Bakı şəhəri** **13 oktyabr 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Günay Qurban qızı Əsgərlinin Şirvan Şəhər Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il sentyabrın 22-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Əsgərli Günay Qurban qızı Şirvan Şəhər Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il 24 may tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2021-ci il sentyabrın 22-də Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin müdiri Elman Qasımzadə, Dövlət İmtahan Mərkəzinin böyük məsləhətçisi Elnur Abbasov və müstəqil ekspert Faiq Əhmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Əsgərli Günay Qurban qızına müsahibə komissiyasının üzvlərindən E.Qasımzadə və E.Abbasov 12 bal, F. Əhmədov 13 bal vermiş və nəticədə iştirakçı 12,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 23.09.2021-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərindən müstəqil ekspert F.Əhmədovun və Komitənin Sənaye və tikinti statistikası şöbəsinin müdiri E.Qasımzadənin çıxışlarına əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Əsgərli Günay Qurban qızının 23 sentyabr 2021-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Şirvan Şəhər Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il sentyabrın 22-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**